https://doi.org/10.59849/3006-1342.2025.3.97
UOT 94(479.24)

*İlahə Arif qızı Əsədzadə*
*AMEA Gəncə bölməsi*
*Kiçik elmi işçi*
*E-mail: ilahe.esedzade@gmail.com*
*https://orcid.org/0009-0007-1288-3719*

# İBRAHİMXƏLİL XANIN HAKİMİYYƏTİ İLLƏRİNDƏ "XƏMSƏ MƏLİKLƏRİ"NƏ QARŞI MÜBARİZƏ

*Qarabağ xanlığı Pənahəli xandan sonra hakimiyyətə gələn İbrahimxəlil xanın dövründə daha da qüdrətləndi. Siyasi, iqtisadi, mədəni və sosial sahələrdə inkişaf pilləsinə daxil olmuş xanlığın əhalisinin 96 faizindən çoxunu Azərbaycan türkləri, qalan 4 faizini isə "xəmsə" məlikliklərinin əhalisi - alban xristianları və başqa tayfalar təşkil edirdi. Həmin məlikliklərin separatizm meyli - Qarabağ xanlığının hakimiyyətini qəbul etməməsi, xanın tabeçiliyindən çıxmaq və öz müstəqil idarəetmələrini qorumaq istəyi xanlığının siyasi birliyinə ciddi təhlükə yaradırdı.*

*İbrahimxəlil xan hakimiyyətə qarşı çıxan xristian-alban məliklikləri ilə (Xaçın, Vərəndə, Dizaq, Çiləbörd. Gülüstan) baş verən çəkişmələrdə mərkəzdənqaçma qüvvələrin qarşısını ala bildi. Belə ki, xan onların bir qismini özünə diplomatik yolla tabe etmiş, bəzilərini isə hərbi güc ilə məğlubiyyətə uğratmışdı. Bununla da, xanlıqda daxili parçalanma və feodal pərakəndəliyi aradan qaldırıldı, mərkəzləşmiş hakimiyyət bərpa olundu, həmçinin siyasi vəziyyət xeyli sabitləşdi.*

*Açar sözlər:* Qarabağ xanlığı, Pənahəli xan, İbrahimxəlil xan, məlikliklər, seperatizm.

## *Giriş*

XVIII əsrin ortalarında Azərbaycanda yaranan 20-ə yaxın müstəqil və yarımmüstəqil xanlıqlardan biri də əsasını Pənahəli xanın qoyduğu Qarabağ xanlığı idi. Nadir Şahın cəza tədbirlərinə ən çox məruz qalmış bölgə olmuş, ziyadoğlu, iyirmidörd, otuzikilər, Cavanşir və başqa tayfalar Xorasan vilayətinə və Əfqanıstanın sərhədlərinə sürgün edilmişdi [9, s. 43]. 1747-ci il iyununda Nadir şah öldürülməsindən sonra Pənahəli bəy bu elat tayfalarının Vətənə geri döndüklərini bildikdə öz ətrafındakılarla birgə Qarabağ ellərini qarşılamaq üçün İran sərhədinə kimi getdi. Köçkünlər əvvəlki yurdlarında məskunlaşdılar [7, s. 42].

Əgər digər xanlıqlar bir şəhərin ətrafında meydana gəlmişdisə, Qarabağ xanlığının ərazisində hansısa mərkəz, təhlükə zamanı isə sığınacaq rolunu oynayacaq yaşayış məntəqəsi yox idi. Buna görə də xanın ilk işi etibarlı bir qala inşa etdirmək oldu. Beləliklə, 1748-ci ildə Kəbirli mahalında Bayat qalası inşa edildi [13, s. 34]. Lakin Qarabağ xanlığının qələbəsi ilə nəticələnsə də, 1748-ci ildə Şəki xanlığı ilə baş verən Bayat savaşı göstərdi ki, xanlıq üçün daha etibarlı qala lazımdır. Çünki qalanın strateji mövqeyi zəif idi və burada uzun müddət üçün böyük hərbi qüvvə saxlamaq mümkün olmurdu. Pənahəli xan 1751-1752-ci illərdə Tərnəkütdə "Şahbulaq" adlı qala inşa etdirdi.

Qarabağ xanlığının qüdrətləndiyi bir vaxtda İranda şah taxtı uğrunda mübarizə bütün kəskinliyi ilə davam edirdi. 50-ci illərin ortalarında əsas mübarizə Astrabad və Mazandaran hakimi Məhəmmədhəsən xan Qacar, Urmiya xanı Fətəli xan Əfşar və Şiraz hakimi Kərim xan Zənd arasında gedirdi. Qarabağ xanı Məhəmmədhəsən xan Qacar kimi qüdrətli düşmənin hücumuna məruz qalmaqdan daha çox ehtiyat edirdi. Buna görə də yeni və möhkəm bir sığınacaq inşa etdirmək qərarına gəldi və "dağların qoynunda möhkəm və sarsılmaz qala"

tikməyi təklif etdi. Seçilmiş ərazi dəniz səviyyəsindən 1400 m yüksəklikdə, bir tərəfi meşəliklərlə digər tərəfi isə uçurum ilə əhatə olunan təbii bir istehkam idi [6, s. 47]. Beləliklə, Şuşa qalasının inşasına başlandı.

1761-ci ildə Kərim xan[7] Azərbaycana hücum etdiyi vaxt Fətəli xan onu Ucan düzündə, Qaraçəmən kəndi yaxınlığında qarşıladı. Urmiya xanına qarşı mübarizədə Kərim xan Fətəli xanla ədavətdə olan Azərbaycan xanlarının qüvvəsindən istifadə etmək qərarına gələrək, Pənahəli xana da müraciət etdi : "...intiqam alsaq və oğlunu xilas etsək, siz sevindiyiniz kimi, biz də arzumuza çatmış olacağıq" [3, s. 119]. Kərim xanın təklifi ilə razılaşan Pənahəli xan kiçik oğlu Mehrəli bəyi Qarabağa müvəqqəti hakim təyin edərək, bir sıra başqa xanlar kimi kimi Kərim xanın düşərgəsinə gəldi. 9 ay davam edən mühasirədən sonra Urmiya qalası təslim oldu. Kərim xan Pənahəli xan da daxil olmaqla köməyinə gələn Azərbaycan xanlarını qələbəni qeyd etmək üçün Şirazda keçiriləcək "şənliklər"ə dəvət etdi. Əslində isə bu dəvətlə sözügedən xanları Şirazda girov kimi saxladı və onları özündən asılı vəziyyətə saldı [4, s. 123-125]. Pənahəli xan "fəxri qonaq" əsirliyindən qaçıb canını qurtarmaq istəsə də, bu mümkün olmadı. Qarabağı xan elə Şirazda da Qarabağ həsrəti ilə dünyasını dəyişdi.

*Əsas hissə.*

Kərim xan Zənd Urmiyanı tutduğu zaman burada dustaq olan İbrahimxəlil ağanı azad edərək Qarabağa göndərmişdi. İbrahimxəlil ağa Qarabağa qayıdıraq böyük qardaş olduğuna görə xan taxtının ona verilməsini tələb edərək tərəfdarlarının sayını artırır və qardaşını sıxışdırmağa başlayır. Mehrəli bəy isə kömək üçün Kərim xan Zəndin yanına getmiş, daha sonra İbrahimxəlil xanın rəqibi qubalı Fətəli xanın yanına pənah aparmışdı. Beləliklə, Pənahəli xanın vəfatından sonra onun mirası olan Qarabağ xanlığının yeni hakimi onun böyük oğlu İbrahimxəlil (1763-1806) oldu.

İbrahim xan xanlığın müdafiəsinin möhkəmləndirilməsində qohumluq diplomatiyasından istifadə etdi. O, Avar və Dağıstan valisi Ümmə xanın bacısı ilə evlənmiş, beləliklə, böyük hərbi gücə malik bir müttəfiq qazanmışdı. Ehtiyac olduqda onlardan (xüsusən ləzgilərdən) Qarabağa döyüşçülər dəvət edirdi. Sonralar İbrahimxəlilxəlil xan Şəkili Səlim xanla da əlaqələrini möhkəmləndirdi [11, s. 48-49]. Təbriz, Ərdəbil, Qaradağ, Naxçıvan və Gəncə kimi xanlıqlar da Qarabağ xanlığından asılı vəziyyətə düşdü.

Xanlıq İbrahimxəlil xanın hakimiyyət illərində daha da qüdrətləndi. Tikinti işləri daha da sürətlənmiş, yeni məhəllələr salınmışdı. Binalar, saraylar inşa olunur və küçələrə daş döşənirdi. Şəhərin müdafiə hasarları, müşahidə bürcləri və başqa sahələr qaydaya salınmış, məhəllələrdə məscidlər tikilərək istifadəyə verilmişdi [9, s.57]. Siyasi, iqtisadi, mədəni və sosial sahələrdə inkişaf pilləsinə daxil olmuş xanlığın əhalisinin 96 faizindən çoxunu Azərbaycan türkləri, qalan 4 faizini isə "xəmsə" məlikliklərinin[8] əhalisi - alban xristianları və başqa tayfalar təşkil edirdi.

Tarix boyu erməni müəllifləri və onların həmfikirləri Qarabağ ərazisində fəaliyyət göstərən həmin beş xristian məlikliyinin rolunu şişirtməyə, onları sanki "erməni milli dövlətçiliyinin nümunəsi" kimi təqdim etməyə çalışmışlar. Lakin Qarabağa gəlmə erməniləri çıxmaq şərti ilə bütün Qafqaz xalqları ilə eyni kökdən olan yerli xristian alban türkləri digər qafqazlılardan sadəcə dini baxışları və xristianlıq ənənələri ilə fərqlənirdilər. İstər Qarabağa sonradan gələn dörd məliklik, istərsə də yerli albanların nəslindən olan "Xaçın" məlikliyi çar fərmanından sonra qriqoryanlığı məcburən qəbul etsələr də, onlar sadəcə məzhəb cəhətdən

[7] Kərim xan Zənd (1705-1779) - 1763-1779-cu illərdə İranda hakimiyyətə gəlmiş Zəndlər sülaləsinin banisi və həmin dövlətin ən məşhur hökmdarı. O, Nadir şah Əfşarın ölümündən (1747) sonra yaranan və uzun illər davam edən daxili çəkişmələr dövründə ölkədə sabitliyi bərpa etmişdir.

[8] "Xəmsə" məlikləri əvvəllər Qarabağ bəylərbəyliyi, sonra isə Qarabağ xanlığının tərkibində olan beş xristian-alban məlikliyinin XVII-XVIII əsrlərdə işlənilən ümumi adı. Ərəb dilindəki xəms (yəni "beş") sözündən əmələ gələrək "beşlik" mənasını daşıyır.

ermənilərlə bir təriqətdəndir, ancaq soykök baxımından qətiyyən erməni deyildilər. Sırf sonradan qriqoryanlaşdırıldıqlarına görə də ermənilər xristian məlikliklərini öz adlarına çıxırlar [5, s. 75].

Qarabağda yerləşən bu məlikliklərdən biri "Dizaq" adlanırdı və Məlik Yeqan tərəfindən idarə olunurdu. O, buraya Loridən qaçaraq gəlmiş, Nadir şahın əmri ilə məliklik taxtında oturmuşdu. İkincisi - Vərəndə məlikliyinin məliyi Şahnəzər daha qədim nəslə-Göyçə nəslinə mənsub olduğundan çox etibar sahibi olmuşdur. Sonralar isə oradan qaçıb Qarabağa - Vərəndə mahalına gəlmişdir.

Digər bir məliklik isə məlikləri Həsən Cəlalın övladı olan "Xaçın" idi. Bu ailə sonralar məliklik mənsəbindən məhrum edilmiş, buna görə də bu mahalın müstəqil bir məliyi olmamışdır. Daha sonra isə "xınzırıstanlı məlik Mirzə xan özünün gözəl iradə və sədaqətli əqidəsinə görə, əbədi dövlət məmurlarının əmrilə məliklik sikkəsini gümüş kimi saf olan adına kəsdirdi". Özündən sonra da oğlu Məlik Allahverdi və nəvəsi Məlik Qəhrəman məliklik bayrağının sahibi oldular.

Dördüncü məliklik olan Çiləbörd mahalının məliyi Allahqulu olmuşdur. Onun ata-babaları Maqavizdən gələrək olduqca çətin yolu olan Cermux qalasını özlərinə məskən, sığınacaq etmişlər. Nadir şah tərəfindən ona "sultan" rütbəsi verilmişdi. Beşinci – Talış mahalının məliyi Məlik Usubun əsli Şirvandan gəlmə idi və onların bir çoxu "məlik" titulunu almışdır.

Göründüyü kimi, yalnız "Xaçın" məliyi yerli idi. "Qarabağnamə"lərin müəllifləri də bu faktı təsdiqləyir. Digər məliklər isə Qarabağa sonradan köçsələr də, heç birinin ermənilərlə genetik bağlılığı yoxdur. Onlar əslən xristian-albanlar, hun-qıpçaqlar, yəni, türk tayfaları idi. Xristian-alban məlikləri sadəcə ailə-nəsil birlikləri idilər və Qarabağda heç biri yadda qalan iz qoya bilməmişdi.

Pənahəli xanın rəhbərliyi dövründə "Xəmsə" məliklərinin Qarabağ xanlığına tabe edilməsi üçün ciddi tədbirlər görüldü və xanlıqda daxili sabitlik təmin edilmişdi**.** Atasından sonra xanlığı idarə edən İbrahimxəlil xanın dövründə də Rusiyanın və onun Qafqazda əsas əlaltısı hesab edilən Kartli-Kaxetiya çarlığının əlində oyuncağa çevrilmiş məliklər yenidən problemlər yaradaraq xana qarşı açıq şəkildə mübarizəyə başladılar. "Xəmsə" məliklərinin bölüşdürücülük hərəkətlərinin qarşısını almaq üçün xan ilkin olaraq hakimiyyətinin öz tərəfdarlarınını sayını artırdı.

Dizaq məliyi Yesay, Çiləbörd məliyi Məclum və Gülüstan məliyi Bəyləryan açıq-aşkar Qarabağ xanlığına tabe olmaqdan imtina etdilər [14, s. 126]. Belə vəziyyətdə İbrahimxəlilxəlil xan qəti tədbir görməli oldu. Xanın ilk növbədə Dizaq məliyini məhv etməsi digər məliklərin qorxuya düşərək qaçıb II İraklinin himayəsinə sığınmasına səbəb oldu.

Qarabağ xanı məlikliklərlə mübarizədə diplomatik vasitələrə də əl atmışdı. Bu tədbirlər nəticəsində Xaçın məliyi yerdə qalan məliklərdən uzaqlaşdı.

Məlum olduğu kimi 1757-ci ildə Qarabağa hücum zamanı ağır məğlubiyyətə uğramış Məhəmmədhəsən xan Qacar daha sonra Gürcüstanı ələ keçirməyə cəhd göstərmiş, bu zaman Pənahəli xan kömək etmək məqsədilə gürcülərlə müqavilər bağlamışdı. Lakin Məliklərin İbrahimxəlilxəlil xana qarşı seperatçılıq mübarizəsi uzun zaman müttəfiq olmuş Qarabağ xanlığı və Kartli-Kaxetiya çarlığı arasındakı əlaqələrə də mənfi təsir göstərirdi Ancaq xan tezliklə Qarabağ hakimi ilə ittifaq bağlamaqda maraqlı olan Kartli-Kaxetiya çarı II İrakli münasibətləri nizama saldı.

İbrahimxəlil xan daha sonra Çiləbördün nüfuzlu adamlarından sayılan yüzbaşı Rüstəm bəyi öz tərəfinə çəkdi. Məlik titulu alan Rüstəm bəy qohumu olan, özünü Yerits Mankants[9] kilsəsinin katalikosu elan edən keşişlə İbrahimxəlil xanı əməkdaşlığa cəlb etdi.

Bir müddət sonra Gülüstan, Çiləbörd və Dizaq məliklərinin yenidən separatçılıq hərəkətlərini gücləndirmələri İbrahimxəlil xan tərəfindən müdafiə edilən Vərəndə və Xaçın məlikləri ilə bu məliklər arasında narazılığa səbəb oldu. Belə ki, Vərəndə məliyi Şahnəzərin öz qızı, həm də Dizaq məliyi İsayın qız nəvəsi olan Hürizadı İbrahimxəlil xana ərə verməsi guya İsayı çox hirsləndirmişdi. Məlik Şahnəzər Xaçın məliyi Mirzəxan ilə birləşərək dəfələrlə İsayın iqamətgahının yerləşdiyi Tuğ kəndinə hücum etmişdi. 1775-ci ildə baş verən döyüşlərdən birində Mirzəxan əsir alınmış və daha sonra öldürülmüşdü. Onun ölümündən sonra İbrahimxəlil xan oğlu Allahverdini Xaçın məliyi təyin etdi.

Gülüstan məliyi olan Yusifin də həmin il ölümündən sonra onun yerinə öncə böyük oğlu Bəylər, sonra isə ikinci oğlu Abov keçmişdi. Abov daha çox məliklik daxilində sakitlik yaratmaqla məşğul olmuş və bu səbəbdən də İsaya kömək göstərə bilməmişdi.

1780-ci ildə Çiləbörd məliyi Hətəmin vəfatından sonra isə yerinə oğlu Məclum məlik olaraq keçir. Məclum səbrsiz, əsəbi bir adam olduğu üçün məliklik ərazisində ona müxalif qüvvvələr meydana gəldi. Bununla da, Dizaq məliyi digər iki müttəfiq məliklikdən kömək ala bilmədi. 1781-ci ildə Vərəndə və Xaçın məliklərinin qüvvələri ilə birgə İbrahimxəlil xan Tuğ kəndini mühasirəyə aldı və uzun mühasirədən sonra İsay danışıqlara dəvət olundu. Lakin həbs edilib zindana salındı və elə orada da öldü [2, s. 142 ]. Dizaqda hakimiyyətə İsayın oğlu Bahtam təyin edildi. Lakin çox keçmədən Bahtam da İbrahimxəlilxəlil xana qarşı mübarizəyə qalxmışdı.

Çar hökumətinin Qafqaz siyasətinin əsl mahiyyəti isə XVIII əsrin 70-ci illərinin sonu - 80-ci illərin əvvəllərində özünü daha çox büruzə verməyə başlamışdı. Belə ki, rus hökuməti Qaradağ xanlığının ərazisi hesabına erməni çarlığı yaratmaq istəyirdi [12, s. 160-162 ].

1780-cı il yanvarm 10-da bir sıra erməni xadimləri general A.Suvorova yazılı müraciət edərək qeyd edirdilər ki, Ermənistan artıq bir neçə əsrdir ki, öz rəhbərini və idarəçiliyini itirmişdir. Lakin öz millətindən hər hansı bir rəhbər olarsa, "Ermənistan" çox asanlıqla bərpa oluna bilər. Bu erməni millətçilərindən təsirlənən alban mənşəli Qarabağ məlikləri də keçmiş xristian-alban dövlətinin bərpası xülyasına qapılmışdı.

Beləliklə, Dizaq, Çiləbörd və Gülüstan məlikləri Rusiya və Kartli-Kaxetiya çarlarının himayədarlığı ilə Qarabağda "xristian dövləti" yaratmaq istəyilə xana qarşı çıxdılar. Belə ki, 1781-ci ildə məlik Adam və məlik Bəyləryan "Alban çar taxtının övladları" adından Qarabağı işğal etmələri məqsədilə II Yekaterinaya və A.V.Suvorova bir neçə gizli məktub göndərmişdilər.

XVIII əsrin ikinci yarısında Qarabağda feodal pərakəndəliyini saxlamağın ən əsas təmsilçisi olan məliklər xanlıqda olduqca böyük təhlükə demək idi. P.S.Potyomkin Qarabağ məliklərini ruhlandıraraq onları "tatar zülmündən xilas etmək" barədə imperatriçədən əmr aldığını bildirirdi. Məliklər dərhal istinilən qarşıdurmaya "hazır olduqları"nı generala xəbər göndərsə də, həmçinin cavablarında bildirirdilər ki, "xan qarşısında öz niyyətlərini vaxtından əvvəl açmaq mütləq məhv edilmək deməkdir" [14, s. 60].

İbrahimxəlil xan rusların və ermənilərin Qarabağ xanlığı ərazisində erməni çarlığı yaratmaq niyyətindən xəbərdar idi. Digər bir tərəfdən, 1783-cü il aprelin 6-da knyaz Potyomkin general Potyomkinə belə bir əmr vermişdi ki, İbrahimxəlil xanı devirərək Qarabağda müstəqil erməni əyaləti təsis etmək lazımdır". Bu niyyətlərdən xəbərdar olan xan

[9] Cırabərd məbədi (monastrı) - Çiləbörd məlikliyində, indi Ağdərə rayonunun Cırabərd kəndində yerləşən, XVII əsr aid monastır.

güzəştə getməyi qərara alaraq və aprel ayında məktub yazaraq bac vermək şərti ilə rus təbəəliyini qəbul etməyə hazır-olduğunu bildirdi [10, s. 162].

Rus ordusunun Cənubi Qafqaza 1782-1783-cü illərdə nəzərdə tutulan yürüşü baş tutmadıqdan sonra Qarabağ məlikləri II İraklinin təşəbbüsü ilə Gəncə üzərinə yürüşə ümid bəsləyirdilər. Lakin Qarabağ xanlığının düşmənlərinin Gəncəyə 1784-1785-ci illərdə planlanan bu yürüşü baş tutmadı. Müttəfiqlər bunu bölgədəki rus qoşunlarmın sayının yetərincə olmaması ilə izah edirdilər. Çünki Krım məsələsini öz xeyrinə həll edən Rusiya hələlik Cənubi Qafqazda hərbi əməliyyat aparmaqla Osmanlı ilə münasibətləri gərginləşdirmək istəmirdi.

Belə bir dönəmdə İbrahimxəlil xan özünə qarşı hazırlanmış qəsd barədə Yerits Mankants monastrmın keşişi vasitəsilə məlumat alsa da, özünü heç nədən xəbəri olmayan adam kimi göstərə xan məlikləri guya hansısa məsələləri təcili müzakirə etmək adı ilə yanına çağırmağa nail oldu. Uzun müddətdir ki, fürsət gözləyən Qarabağ xanı onun güzəştə getməyə hazır olduğuna inanan məliklərdən Apo, Məclum və Bahlamı həbs etdirərək Şuşa qalasına saldı və onların əvəzinə isə özünə yaxın adamlarını təyin etdi [1, s. 4].

Bundan sonra İbrahimxəlil xan Qanzasar monastrına da zərbə endirdi. Belə ki, xanın süvari dəstəsi qəflətən monastra hücum edərək katalikos İohannesi və onun beş qardaşını tutub Şuşaya gətirdi. 1786-cı ildə İohannes zəhərləndi və Qanzasar monastrı 8 min tümən cərimə edildi. Alban katalikosunun yeni iqamətgahı artıq Qanzasar deyil, Amaras monastrı oldu.

İbrahimxəlil xanın seperatçı məlikləri həbs etdirməsi böyük səs-küyə səbəb olmuşdu. Məliklərin yaxın qohumları və tərəfdarları rus və gürcü çarlarının yanına gedərək Rusiya və Gürcüstandan məlikləri azad etmək üçün yardım göstərməyi xahiş etmişdilər. Qafqazdakı rus qoşunlarının komandanı İbrahimxəlil xana hədə-qorxu gələrək, təcili şəkildə məlikləri azad etməyi tələb etdi. Rusiya kimi güclü dövlətin qarşısında dayanmağın mümkünsüzlüyünü anlayan Qarabağ xanı 15 min manat müqabilində məlikləri azad etməyə məcbur oldu

Həbsdən qurtulan məliklər artıq Qarabağda qalmalarının mümkün olmadığını görərək çarlığın ərazisinə köçmək xahişi ilə II İrakliyə müraciət etdilər. Müttəfiqlər İbrahimxəlil xanı nəinki Gəncədən sıxışdırıb çıxarmaq, həm də bütün Qarabağı ələ keçirərək aralarında bölüşdürmək istəyirdilər. Belə ki, II İrakli və İbrahimxəlil xan 1780-ci ildə birləşərək Gəncəni ələ keçirmişdilər [8, s. 21-26]. Gəncə xanlığını onların hər ikisinin təyin etdikləri nümayəndələr idarə edirdi. Ancaq bir neçə ildən sonra gəncəlilər üsyan qaldıraraq II İraklinin şəhərdəki nümayəndəsi Keyxosrovu qovmuşdular və Gəncə xanlığı tamamilə İbrahimxəlil xanın nəzarəti altına keçmişdi**.**

Belə olduqda Kartli-Kaxetiya çarı Gəncə üzərinə açıq hərbi müdaxilə etmək qərarına gəldi. Onun ən böyük dəstəkçiləri Qarabağ məlikləri oldu. Məliklər Rusiya ilə əlaqələri daha da gücləndirir və inandırmağa çalışırdılar ki, Osmanlı ilə birləşən İbrahimxəlil xan onları tamamən məhv etməyə hazırlaşır. Lakin gürcü çarı müttəfiqlərinin gəlməsini gözləməyərək öz ordusunu Gəncə üzərinə göndərdi. Bu dəstə Gəncə xanı Cavad xanın yardımına gedən İbrahimxəlil xanın qoşunu ilə qarşılaşdı və sayı dəfələrlə artıq olan gürcü qoşunu ilə döyüşdə xan itki verərək geri çəkildi. Lakin gürcü çarının və Qarabağ məliklərinin təkidinə baxmayaraq Osmanlı ilə baş verən müharibə səbəbindən rus komandanlığı üç gün ərzində Gəncə ətrafındakı rus taborunu Qafqaz xəttinə qaytardı/

Bir müddətdən sonra isə məlik Məclum və Abov arasında ixtilaf yarandı. Daha sonra Abovla II İrakli arasında narazılıq yarandığından o, İbrahimxəlil xanları barışdı və Qarabağa dönərək Gülüstanda yerləşdi [15, s. 58-59]. 1791-ci ildə məlik Şahnəzər öldü. İbrahimxəlil xan məlikliyə Şahnəzərin qanuni arvadı Taquya xanımdan olan oğlunu deyil, öz arvadı Hurizad xanımın doğma qardaşı olan Hüseyni təyin etdi. Bundan sonra İbrahimxəlil xan

Rüstəm bəyi Məclumun yerinə Çiləbörd məliyi təyin etdi və Abovun da əvəzinə başqa adam Gülüstan məliyi vəzifəsinə gətirildi.

XVIII əsrin sonunda isə Cənubi Qafqazda vəziyyət tamamilə dəyişdi. Belə ki, 1796-cı ildə çariça II Yekaterinanın ölümündən sonra Rusiyada hakimiyyətə gələn I Pavel general V.Zubova xəbər göndərdi ki, hərbi əməliyyatlara son qoyulsun.

Beləliklə, ermənilər tərəfindən rus qoşunlarının Cənubi Qafqaza həvəsləndirici yürüşü başa çatmış oldu. Bundan sonra Qarabağ məlikləri də olduqca böyük qorxuya düşdülər. Çünki onlar Şamaxını işğal edən rus ordusun tez bir zamanda Qarabağa gələcəklərinə şübhə etmirdilər. V.Zubovun öz nümayəndəsini məliklərin yanına göndərməsi də onlarda artıq müstəqil olduqlarına şübhə yeri qoymamışdı [16, s. 281]. Vərəndə məliyi Cəmşid vəd vermişdi ki, V.Zubov Qarabağa yürüş edəndə bütün qüvvələri ilə onu qarşılayacaq və dəstəsi ilə V.Zubovun qoşunlarına qoşulacaq. Həmçinin Məlik Cəmşidin bu addımı digər məliklərə nümunə olmalı idi. Belə halda V.Zubovun Qarabağa ayaq basmadan geri dönməsi məliklər üçün heç də yaxşı olmadı. İbrahim xan məlik Cəmşidi yanına cağırtdırdı, onu Qarabağ xanlığına xəyanətdə və işğalçı qoşunlarına kömək etməkdə günahlandırdı. Bundan sonra o həbs edildi, əmlakı isə müsadirə edildi.

Beləliklə, aydın olur ki, İbrahimxəlil xan uzun illər ərzində və müxtəlif yollarla mərkəzdənqaçma qüvvələrin qarşısını almağa müvəffəq oldu.

*Nəticə*

Göründüyü kimi, möhkəm iradəsi və idarəçilik qabiliyyəti sayəsində məliklərin separatçılıq meyillərinin qarşısı ala bilən İbrahimxəlil xan onların bir qismini özünə diplomatik yolla tabe etmiş, bəzilərini isə hərbi güc ilə məğlubiyyətə uğratmışdı. Bununla da. xanlıqda daxili parçalanma aradan qaldırıldı, feodal pərakəndəliyə son qoyularaq mərkəzləşmiş hakimiyyət bərpa olundu və siyasi sabitlik yarandı. Xanın belə siyasəti Qarabağ xanlığında mühüm dönüş nöqtəsi olmuş və bölgədə milli-siyasi birliyin bərqərar olunması ilə xanlıq XVIII əsrin sonlarında Cənubi Qafqazın ən sabit və güclü dövlətlərindən birinə çevrilmişdir.

ƏDƏBİYYAT


1. Azərbaycan MEA, A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi arxivi, inv. 1795/2
2. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. Ч. Ш. СПб., 1869, 620 с.; ч. II, 60 с. приложение + 5 рисунка.
3. Cavanşir M. C. Q. Qarabağ tarixi /Qarabağnamələr. I kit. Bakı, Yazıcı, 1989, s. 104-148.
4. Dəlili H.Ə. Azərbaycanm cənub xanlıqları XVIII əsrin ikinci yarısında. Bakı, Elm, 1979, s. 144.
5. Əsədzadə İ. Qarabağın - "xəmsə" məlikləri: erməni saxtakarlığının növbəti hədəfi. "Xəbərlər Məcmuəsi (İctimai və humanitar elmlər seriyası)". "Elm" nəşriyyatı-2025, s. 72-78.
6. Fərzəlibəyli Ş.F. Quba tarixi. Bakı, "Əbilov, Zeynalov və oğulları", 2001, s. 388.
7. Hacıyeva Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı: "Təhsil", 2007, 254 s.
8. Həmidova Ş. XVIII əsrin ikinci yarışında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı, 1985. 100 s.
9. Hüseynov Y. Qarabağ tarixi mənbələrdə. Bakı: "Şuşa" nəşriyyatı, 2012. 248 s.
10. Köçərli T. Qarabağ [Qarabağ tarixinin saxtalaşdırılması əleyhinə]. Bakı, Elm, 2002, 472 s.
11. Qarabaği M.Y. Tarixi-safi // Qarabağnamələr. İkinci kitab, tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s. 6-91.

12. Маркова О.П. Россия, Закавказья и международные отнашения в XVIII веке. Москва, 1966, 324 с.
13. Mirzə Adıgözəl bəy. Qarabağnamə /Qarabağnamələr. I kit. Bakı, s. 5-102.
14. Mustafazadə T. Qarabağ xanlığı. Bakı "Sabah" – 2009, s.333.
15. Раффи. Меликства Хамсы [пер с. Арм. Л.М. Казаряна]. Ереван, 1991 [http:armenianhouse.org/raffi/novels-Наири,ru/ khamsa/meliks1_14].
16. Süleymanov M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: "Hərbi nəşriyyat", 2008. 398 s.

УДК 94(479.24)

*Илаха Ариф гызы Асадзаде*
*Гянджинское Отделение НАНА*

БОРЬБА С «ХАМСА МЕЛИКС» В ГОДЫ ПРАВЛЕНИЯ ИБРАГИМХАЛИЛА-ХАНА
*РЕЗЮМЕ*

*Ключевые слова*: Карабахское ханство, Панахали-хан, Ибрагимхалил-хан, мелики, сепаратизм

Карабахское ханство стало ещё более могущественным в период правления Ибрагимхалил-хана, пришедшего к власти после Панахали-хана. Более 96% населения ханства, вступившего в период политического, экономического, культурного и социального развития, составляли азербайджанские тюрки, а оставшиеся 4% составляло население ханств «Хамсе» – албанских христиан и другими этническими группами. Сепаратистские тенденции этих ханств – нежелание признавать власть Карабахского ханства, стремление выйти из-под ханского подчинения и сохранить самостоятельное управление – представляли серьёзную угрозу политическому единству ханства. Ибрагимхалил-хану удалось предотвратить центробежные силы в конфликтах с оппозиционными правительству христианско-албанскими ханствами (Хачин, Варанда, Дизаг, Чилаборд, Гюлистан). Таким образом, хану удалось подчинить некоторые из них дипломатическим путём, а некоторые разгромить военной силой. Таким образом, была ликвидирована внутренняя феодальная раздробленность в ханстве, восстановлена централизованная власть, а также значительно стабилизирована политическая ситуация.

UDC 94 (479.24)

*Ilaha Arif Asadzadeh*
*Ganja Branch of ANAS*

STRUGGLE AGAINST THE "KHAMSA MELIKS" DURING THE YEARS OF IBRAHIMHALIL KHAN'S RULE
*SUMMARY*

*Keywords:* Karabakh Khanate, Panahali Khan, Ibrahimkhalil Khan, meliks, separatism

The Karabakh Khanate became even more powerful during the reign of Ibrahimkhalil Khan, who came to power after Panahali Khan. More than 96 percent of the population of the khanate, which had entered the stage of development in political, economic, cultural and

social spheres, was made up of Azerbaijani Turks, and the remaining 4 percent was made up of the population of the "Khamsa" meliks - Albanian Christians and other tribes. The separatist tendency of those khanates - their refusal to accept the authority of the Karabakh khanate, their desire to break away from the khan's subordination and maintain their independent administration posed a serious threat to the political unity of the khanate. Ibrahimkhalil Khan was able to prevent centrifugal forces in the conflicts with the Christian-Albanian khanates that opposed the government (Khachin, Varanda, Dizag, Chilabord, Gulistan). Thus, the khan subdued some of them diplomatically, and defeated some of them with military force. Thus, the internal division and feudal fragmentation in the khanate were eliminated, centralized power was restored, and the political situation was also significantly stabilized.

***Daxil oldu: 13.11.2025-ci il***